**Pomidor istehsalı təsərrüfatlarında keçirilən monitorinqlərə dair məlumat**

**(19 yanvar 2023)**

Agentliyin Qazax-Tovuz regional bölməsinin fitosanitar müfəttişləri tərəfindən Şəmkir rayonu ərazisində yerləşən pomidor istehsalı təsərrüfatlarında aparılmış monitorinqlər zamanı simptomlu bitki hissələrindən nümunələr götürülərək Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunun müvafiq laboratoriyasına təqdim olunub. Müayinələr nəticəsində hər hansı uyğunsuzluq halı müəyyən edilməyib.

Monitorinq zamanı təsərrüfat sahiblərinə, o cümlədən təsərrüfatda çalışan işçilərə pomidorun əsas xəstəlik və zərərvericiləri haqqında məlumat verilib, "İstixanalarda zərərli orqanizmlərin idarə olunmasına dair Təlimat"da göstərilən tədbirlərin praktikada tətbiqi və pestisidlərlə işləyən zaman təhlükəsizlik qaydalarına əməl olunması ilə əlaqədar müvafiq istiqamət verilib.